Bu il Təhsil Nazirliyinin tabeliyində olan ali məktəbləri 20.092 bakalavr, 2.564 magistr başa vuracaq.

2009-cu il Təhsil Nazirliyinin tabeliyindəki dövlət ali məktəblərinin magistratura pilləsinə tələbə qəbulu planına uyğun olaraq 3.785 yer təklif edilib. Bunların 1.822-si dövlət hesabına, 1.963-ü ödənişlidir. Eyni zamanda, Azərbaycan Dövlət İqtisad Universitetinə MBA proqramı üzrə 450, Azərbaycan Dövlət Neft Akademiyasına MBA proqramı çərçivisində 100, Tempus proqramı üzrə isə 16 magistr yeri ayrılıb. Müvafiq ali məktəblərin bakalavr pilləsinə isə 21.290 nəfərin qəbul olunması nəzərdə tutulub. Onların 9.275-i dövlət hesabına, 12.015 nəfəri isə ödənişli əsaslarla təhsil alacaq.